# Tarix dərslərində Xocalı soyqırımının öyrənilməsi metodları

**Humeyrə Dadaş qızı Nadiri**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdindəki*
*Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi*
**E-mail:** nadirihumeyre@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. A.M. Balayev,
t.ü.f.d., dos. S.Ə. Talıblı

**Açar sözlər:** Xocalı, soyqırım, genosid, erməni separatçıları, terrorçular, beynəlxalq ictimaiyyət, hərbi təcavüz, milli ordu, XTMD

**Ключевые слова:** Ходжалы, резня, геноцид, армянские сепаратисты, террористы, международное сообщество, военная агрессия, национальная армия, ООПТ

**Key words:** Khojaly, massacre, genocide, Armenian separatists, terrorists, international community, military aggression, national army, SPNT

Tarix elmi  xalqın həyatında baş verən hadisələri özünəməxsus metodlarla öyrənir və gələcək nəsillərə ötürür. Tarix elmində ümumelmi və xüsusi tarixi metodlardan istifadə olunur. Buraya ideoqrafik, retrospektiv, tarixi-tipoloji, tarixi-sistemli, tarixi-müqayisəli, tarixi-genetik metodlar daxildir. Tarix elmi təkcə təsviri və müqayisəli metodlardan istifadə etmir. O, bir nəzəri elm kimi müxtəlif metodlara əsaslanır. Çünki "tarix elmi öz metodlarını əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Burada həm ciddi kəmiyyət analizi, həm struktur metodlar, həm semiotika, həm də bəzi başqa yanaşmalardan istifadə edilir" (11, s. 15).

Tarix dərslərində vəhşi, qəddar, qaniçən, faşist ermənilərin Azərbaycan xalqına və bəşəriyyətə qarşı törətdikləri ən böyük qətliam, soyqırım və genosid olan Xocalı soyqırımı haqqında ətraflı məlumat verilməli və qeyd edilməlidir ki, bu faciə beynəlxalq aləmdə geniş əks-sədа doğurmuşdur. Yada salmaq lazımdır ki, hələ 1991-ci il sentyabrın 2-də Xankəndində erməni "deputatları" sessiya çağıraraq "Dağlıq Qarabağ Respublikası"nın yarandığını elan etdilər. Buradakı seperatçı erməniləri Ermənistan dövləti və açıq fəaliyyətə başlamış "Daşnaksütyun" millətçi  partiyası idarə edirdi.1991-ci ildə həmin dövrdə Azərbaycanı yaranmış milli ordu hissələri və xüsusi təyinatlı milis dəstələri Dağlıq Qarabağda fəaliyyətə başladılar. Separatçı rejim quldurlardan və terrorçu başkəsənlərdən  ibarət "Artsaxın milli-azadlıq ordusu"nu yaratdı.

Xocalı soyqırımı dünyanın müxtəlif ölkələrində hər il anılır, bu qanlı hadisəyə həsr olunmuş minlərlə əsərlər, kitablar, filmlərdə erməni faşizminin mahiyyəti aşkara çıxarılır. Xatın, Babi-Yar, Sonqmi, Lidise, Oradur faciələrilə ilə müqayisə olunan Xocalı soyqırımı sivilizasiya tarixinə daxil olan ən qanlı hadisə hesab olunur. Xocalı soyqırımı ermənilərin azərbaycanlılara qarşı apardıqları 200 illik qanlı, məkrli siyasətin ən vəhşi davamıdır. Milli əlamətə görə həyata keçirilən bu soyqırım həm də etnik təmizləmədir. Soyqırımın baş verdiyi ildə mütərəqqi, vicdanlı, obyektiv mətbuat orqanları bu faciəni ətraflı işıqlandırmışlar.

Xocalıya hücum ərəfəsində şəhərdə 3 min nəfərə yaxın əhali qalmış, şəhəri 80 nəfərdən ibarət yerli batalyon, 20 nəfərdən ibarət milli ordunun hərbçiləri, 60 nəfər yerli milis əməkdaşları qoruyurdu. Onların hərbi texnikası 200-250 avtomat silahlardan, 2 alazan, 2 "Qrad" raket yaylım atəş qurğusundan, 1 artilleriya topundan ibarət idi (6, s. 55). Xocalının mühasirəyə alan quldur dəstələrində isə piyadaların zirehli maşınları, avtomat silahlar, "Alazan" ra-

ketləri, tanklar, çox sayda canlı qüvvə var idi. Onlara hücum zamanı Xankəndindəki 366-cı polk da kömək etdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən Rusiyanın 366-cı motoatıcı alayının 180 nəfər hərbi mütəxəssisi və ağır texnikanın iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər (5, s. 8). Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı və insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Bu soyqırım nəticəsində 613 nəfər öldürüldü, 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürüldü və 150 nəfər itkin düşdü (4, s. 285).

Xocalıya hücum zamanı 366-cı motoatıcı 3-cü batalyonunda 50-dən çox erməni zabiti və gizirləri iştirak etmişdir. "Həmin gecə saat 23:00-da ermənilər üç istiqamətdən Xocalıya hücum etdi. Bu hücumda Ermənistan Respublikası silahlı qüvvələrinin tabeçiliyində olan silahlı qruplar, muzdlu terrorçular, özünü "Artsax xalq ordusu" adlandıran Dağlıq Qarabağın erməni quldur birləşmələri və 366-cı rus hərbi alayı iştirak etmişdi. Bu hücumda Xankəndi tərəfindən öndə olan 366-cı alayın hərbi texnikası, onların ardınca rus-erməni silahlı dəstələri, Əsgəran istiqamətindən isə mindən çox silahlı quldurlar daha çox fəallıq göstərirdilər. Əvvəlcə 366-cı alayın tanklarının köməyilə piyada qüvvələri şəhərə doğru irəliləyərək artilleriya atəşi ilə şəhərdə olan əsgər qərargahları və atəş mövqelərini məhv etmişdilər.

Şəhərin müdafiəçiləri səhərə qədər düşmənə qarşı rəşadətlə döyüşmüşdülər. Onların bir neçəsi kamikadze şücaəti göstərərək bədənlərinə partlayıcı qurğu bağlayaraq özlərini düşmən texnikasına çırpmışdılar. Sonuncu müqavimət məntəqəsi səhər saat 7-də susdurulmuşdur. Atışma zamanı Xocalıda yüzlərlə adam döyüşə-döyüşə həlak olmuşdu" (7, s. 6). Xocalı soyqırımında izləri itirmək üçün 1992-ci il martın 2-də ruslara məxsus olan 366-cı motoatıcı alay Gürcüstanın Vaziani şəhərinə köçürüldü, martın 10-da isə marşal Şapoşnikovun əmri ilə həmin alay ləğv edilərək tərkibi başqa alaylara paylandı (1, s. 145].

Könüllülərdən ibarət alaylar əhalini mühasirədən çıxarırdılar, Aqil Quliyev rota komandiri idi, vətənin igid övladı neçə-neçə adamı xilas edərək öz həyatını qurban verdi, Əlif Hacıyev isə hava limanına nəzarət edirdi. Düşmənin əlinə keçməsin deyə o, dispetçer məntəqəsini partlatdı, sonraki döyüşlərdə həmin gecə qəhrəmancasına həlak oldu. Tofiq Hüseynovun komandanlıq etdiyi Xocalı Özünümüdafiə Batalyonu ermənilərin canlı qüvvəsini və texnikasını məhv edib, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı milis dəstəsi, milli ordunun əsgərləri mərdliklə döyüşür, cəmi 3 ədəd zirehli texnikası, "Alazan" raket qurğusu, iki ədəd "Qrad" tipli raket atəş sistemi olan müdafiəçilər ermənilərin üstün qüvvələri qarşısında tab gətirə bilmədilər. Xocalı Özünümüdafiə Batalyonunun komandiri Tofiq Hüseynov xeyli soydaşlarımızı xilas etdi, düşmənin hücumunun qarşısını üç-dörd dəfə ala bildi, son anda mühasirəyə düşən vətənin qəhrəman övladı sonuncu qumbarası ilə özünü həlak etdi. Azərbaycan tərəfi "Qrad" raket qurğusundan istifadə etdilər. Hər üçü: Quliyev Aqil, Hacıyev Əlif, Hüseynov Tofiq ölümlərindən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşlər. Xocalının işğalından sonra erməni təcavüzkarları Dağlıq Qarabağda yeganə hava limanını ələ keçirdilər. Bu amillər erməni basqınçılarını həvəsləndirdi. Xocalı şəhərinin işğalından sonra Şuşa və Laçın mühasirə vəziyyətində idi. Xocalının bir neçə yüz müdafiəçiləri və qəhrəmancasına həlak olmuş milli qəhrəmanları-Ələsgər Novruzov, Əlif Hacıyev, Allahverdi Bağırov, Tofiq Hüseynov, Aqil Quliyev, İnqilab İsmayılov, Füzuli Rüstəmov qeyri-bərabər döyüşdə mərdliklə döyüşmüşdülər.

Xocalı soyqırımı qurbanlarından öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocalardır. 487 nəfər yaralıdan 76 nəfəri uşaqdır. 1275 nəfər girovdan 150 nəfər itkin düşmüşdür. Halbuki, Ermənistanın rəsmi orqanları azərbaycanlı əsir və girovların ol-

madığını iddia edirlər. 2000-ci ilin dekabr ayının 16-da isə Rusiya Federasiyasının Baş Kəşfiyyat İdarəsinin polkovniki, cənab Vladimir Romanoviç Savelyevin Birləşmiş Millətlər Təşkilatına ünvanlanmış məktubunda isə Ermənistan ərazisində əsirlərin sayından, düşərgə zonalarından bəhs olunur). 25 nəfər uşaq hər iki valideynini itirmiş, 130 nəfər ya atasını, ya da anasını itirmiş, 8 ailə tamamilə məhv edilmişdir" (10, s. 33-34).

Xocalının işğalı zamanı erməni quldur separatçılarının silahlı qüvvələri qadağan olunmuş silahlardan istifadə etmiş, şəhərə 2,5 milyard ABŞ dolları məbləğində ziyan vurmuş, xocalıların əmlakları talan edilmişdir.

Ağdamda aparılmış məhkəmə-tibb ekspertizasının nəticələrinə görə buraya gətirilmiş, meyitlərdən 151 nəfər güllə yarasından, 90 nəfər qəlpə yarasından, 10 nəfər küt alətin zərbəsindən ölmüşdür. Ermənilər vəhşicəsinə canlı insanların baş dərisini soymuşlar. "Tibbi ekspertizanın rəyçisi F. Əfəndiyevin təqdim etdiyi materiallar və faktlar istər-istəməz insanı dəhşətə gətirir. Ekspertizanın rəyində qeyd olunur ki, xəsarətlərin əmələgəlmə mexanizminə görə bölünməsi aşağıdakı qaydada olmuşdur: a) qəlpə təsirindən – 20 nəfər; b) güllə təsirindən – 151 nəfər; c) küt alət təsirindən – 10 nəfər. Xəsarətlər yerləşdiyi nahiyəyə görə aşağıdakı kimi olmuşdur: a) baş nahiyəsi – 40; b) döş qəfəsi – 74; c) qarın nahiyəsi – 17; d) ətrafları – 11. Bununla yanaşı müayinə olunmuş meyitlərdən 3 nəfərində ətrafların donması, 33 nəfərində işgəncə əlamətləri, eyni zamanda göz almalarının çıxarılması, dişlərin sındırılması, müayinə edilən meyitlərdən 10 nəfərində güllə yarası ilə birlikdə onların üzərindən hərbi texnikanın keçməsi əlaməti olmuşdur" (7, s. 7).

Xocalı soyqırımı törədən və axtarışa verilən şəxslərin sayı 39 nəfərdir. Bəzi mənbələrdə onların  sayı 51 nəfər göstərilir. Xocalı soyqırımının təşkilində Ermənistana rəhbərlik etmiş R. Köçəryan, S. Sarkisyan, generallar S. Ohanyan, V. Balasanyan və başqaları bilavasitə canilər kimi layiqli cəzalarını almalıdırlar. Ən dəhşətlisi budur ki, Ermənistana rəhbərlik etmiş Serj Sarkisyan "Qara bağ" kitabının müəllifi britaniyalı jurnalist Tomas de Vaaluya öz cinayətlərini etiraf etmişdir: "Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, bizimlə zarafat etmək olar, onlar fikirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmağa qabil deyillər. Biz bu streotipi sındırmağı bacardıq" [8,6].

Bu fikir haqqında şərh verməyə ehtiyac yoxdur. Bütün dünyaya öz caniliyini etiraf edən erməni terrorçu "rəhbəri"nə dünyanın səssiz qalması dəhşətdir. Sənədlər erməni vəhşiliyini təsdiq edir: "Xocalı ilə bağlı ermənilərin ruslarla əlaqələrinə dair sənədlərin bir qismi 1992-ci il mart ayının 1-də Zaqafqaziya Hərbi Dairəsinin aviasiya komandanı general-mayor S. Lukaşovun əmrilə yandırıldı. Polkovnik V. Savelyev isə "Məxfi arayışın"da bütün bunlara toxunaraq xatırladır: "...Ermənilər ruslara məxsus "02-19-MM" nömrəli "Kamaz"la ərazidəki azərbaycanlı meyitləri yığıb Xocalıda tonqal qurdular...İnsanın insana olan nifrəti burada həddini aşmışdı. Kim yaratmışdı bunu, dərk edə bilmirdim... mən sizə ermənilərə qoşularaq əsir alınmış azərbaycanlıları sıraya düzərək tək-tək məhv edən və bundan həzz alan rütbə sahiblərini tanıtmaq istəyirəm: polkovniklər B.Baymukov, İ.V.Moiseyev, mayorlar S.İ.Ohanyan, E.A.Nabokix, V.İ.Citçiyan, V.Q.Hayriyan, baş leytenantlar O.V.Mirzaxayzarov, S.V.Xrinxua, V.N.Qarmaş, H.T.Hakopyan, V.İ.Valilovski, A.B.Lısenko, V.A.Azarov, İ.S.Abraimov, leytenantlar O.V.Balczni, A.V.Smakin, S.İ.Raçkovski, V.İ.Bondaryev, A.İ.Kulov. (eləcə də 41 nəfər milliyyətcə erməni olan kiçik rütbəli şəxslər)" (3, s. 196-197).

Xocalıda Xankəndindən, Dağlıq Qarabağın müxtəlif bölgələrindən, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınlar, Özbəkistanın Fərqanə bölgəsindən Azərbaycana pənah gətirmiş Ahıska türkləri də hücuma məruz qalmış və məhv edilmişlər. Xocalıya hücum zamanı dinc əhaliyə qarşı kütləvi zorakılıq tətbiq olunmuşdur. Şəhərdə 5,45 kalibirli qadağan olunmuş gül-

lələrdən və kimyəvi silahlardan istifadə edilmişdir. İnsanlar xüsusi qəddarlığa məruz qalmışlar, onların başları və digər bədən üzvləri kəsilmiş, gözləri çıxarılmış, diri-diri yandırılmışlar. Xocalılara görünməmiş divan tutulmuş, onları vəhşicəsinə döymüş, dişlərini çıxarmış, qulaqlarını, dillərini kəsmiş, qadınların döşlərini kəsmişilər. Ermənilər 366-cı sovet polkunun köməyi ilə şəhərə hücum zamanı əhaliyə amansız divan tutdular. Ən çox da düşmənin guya əhaliyə verdiyi “sərbəsi dəhliz”də kütləvi qırğınlar oldu.

“Ağdama tərəf müxtəlif istiqamətlərdən hərəkət edən dinc əhali yolda erməni silahlı qüvvələri tərəfindən atəşə tutularaq girov götürülmüş, dəhşətli işgəncələrə məruz qalmışdır. Dinc sakinlərin qaça biləcəyi yolların qarşısında gizlənmiş erməni əsgərləri gəlib keçənləri qətlə yetirmişdilər. Ermənistan hərbi birləşmələri qətlə yetirdikləri insanların üzərində xüsusi əməliyyat apararaq onların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmışlar” (7, s. 5).

Ermənilərin bu vəhşiliklərini əldə olunan çoxsaylı sənədlər təsdiq edir. Erməni faşistləri Allahın bəxş etdiyi yaşamaq haqqı azərbaycanlılardan aldı, Xocalı şəhərinin dinc əhalisini vəhşicəsinə qətlə yetirdilər. Cinayətkar ermənilər öz yalanlarını beynəlxalq ictimaiyyətə sırımağı, onları öz iftiralarına inandırmağı bacarırlar. “Bütün bunları nəzərə alaraq hazırda Azərbaycan dövlətinin dəstəyi ilə xaricdə yaşayan soydaşlarımız tərəfindən Xocalı faciəsi haqqında həqiqətlərin dünyaya çatdırılması, onun əsl soyqırımı aktı kimi tanıdılması istiqamətində mühüm addımlar atılır, kitablar yazılır, jurnalist tədqiqatları aparılır. Ayrı-ayrı ölkələrin parlamentlərində, beynəlxalq təşkilatlarda bu faciə müzakirəyə çıxarılır, dünya ictimaiyyətinin diqqəti bu məsələyə cəlb edilir və XX əsrin ən dəhşətli faciələrindən biri rəsmi sənədlərlə, real faktlarla dünya ictimaiyyətinə təqdim edilir. Xocalı şəhidlərinin əziz xatirəsini bir daha dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, həlak olanların yaxınlarını, doğmalarını, bütün Azərbaycan xalqını bir daha əmin edirik ki, haqq-ədalət yerini tapacaq, Xocalı şəhidlərinin və qəhrəmanlarının uğrunda mübarizə apardığı ideyalar azad və müstəqil Azərbaycan Respublikasında daim yaşayacaqdır” (7, s. 10).

Tarix dərslərində "soyqırım" anlayışının hüquqi mənası da öyrədilməlidir. Diqqətə çatdırılmalıdır ki, “soyqırım” termininin mahiyyəti BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnamə ilə qəbul etdiyi "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiya ilə müəyyən edilmişdir və hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə aşağıdakı hərəkətləri bildirir:

“— belə bir qrupun üzvlərinin qətlə yetirilməsi;

— belə bir qrupun üzvlərinə ciddi bədən xəsarətləri və əqli pozğunluq yetirilməsi;

— hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması;

— belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər;

— uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi.

Soyqırım cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır” (13).

Bu xüsusiyyətlərilə soyqırım digər qanlı cinayətlərdən seçilir. Soyqırım şüurlu və əvvəlcədən düşünülmüş dəhşətli əməldir. Xilas olmağa can atan Azərbaycan mülki əhalisinin əvvəlcədən xüsusi olaraq hazırlanmış pusqu yerlərindən müxtəlif silah növlərindən atəşə tutulması soyqırım niyyətini sübut edir. Bu cinayət ona görə soyqırım hesab olunur ki, azərbaycanlı milli qrupuna qarşı yönəlmişdir. Soyqırım cinayəti etnik qrupun tamamilə və ya qismən məhv edilməsidir. BMT-nin beynəlxalq məhkəməsi soyqırım aktını qadağan etmişdir

Aşağıdakı sənədlər Xocalı hadisələrini beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi tövsif etməyə imkan verir:

“1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli “Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar” Konvensiyası.

2. Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (hərçənd Nizamnamədə soyqırım cinayətinə birbaşa isnad edilməsə də, soyqırımı təşkil edən hərəkətlər onda bəşəriyyətə qarşı cinayətlər və hərbi cinayətlər kimi tövsif olunur).

3. Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4).

4. Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (maddə 1).

5. Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (maddə 6).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103).

7. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanı.” (2, s. 143).

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanında göstərilir: “1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır” (12).

Baş verən qanlı hadisə beynəlxalq aləmdə müxtəlif terminlərlə ifadə olunur. Azərbaycanda və qardaş Türkiyədə bu hadisə “Xocalı genosidi”, “Xocalı soyqırımı”, “Xocalı faciəsi” adlanır. Qərb və dünya mətbuatı da “Xocalı genosidi” terminindən istifadə edir. Ermənistan və dünya erməniləri isə hadisənin miqyasını kiçiltmək üçün “Xocalı döyüşü” və “Xocalı hadisəsi” sözlərini işlədirlər.

1994-cü il martın 1-də Ümummilli lider Heydər Əliyev Xocalı genosidi ilə əlaqədar olaraq xüsusi fərman verdi. Azərbaycan Respublikasının Milli Məclisi fevralın 26-nı “Xocalı genosid günü” elan etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Xocalı faciəsinin bütün dünyaya tanınması üçün geniş ideoloji və intellektual iş aparılır.

Birinci vitse-prezident M. Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın səyləri nəticəsində bütün dünyada Xocalı soyqırımına həsr olunmuş kitablar və filmlər yayılır, "Xocalıya ədalət” (2008-ci il mayın 8-dən) kampaniyası keçirilir ki, bunlardan əsas məqsəd dünya ictimaiyyətinə soyqırım haqqında geniş məlumat verməkdir. Məhz bütün bu səylərin nəticəsində dünyanın bir çox ölkələri və beynəlxalq qurumlar Xocalı soyqırımını tanıyır.

Xocalı hadisələrinin təhlili göstərir ki, erməni millətçiləri yalnız hərbi məqsədlər güdməmişlər. “Əlbəttə, onlar strateji əhəmiyyət kəsb edən Azərbaycan yaşayış məntəqəsini məhv etməklə bir tərəfdən bu günümüzə gəlib çıxan tarixi və mədəni ənənələrimizi əks etdirən bir məkanı darmadağın etmişlər. Burada Azərbaycan tarixinə Xocalı-Gədəbəy mədəniyyəti kimi daxil olan abidələr cəmləşmişdir. Xocalıda arxeoloji qazantılar zamanı tapılmış sərdabələr, kürqanlar, digər abidələr və məişət predmetləri bəşər cəmiyyətinin tarixi inkişafını əks etdirən mədəniyyət nümunələridir. Təsadüfi deyildir ki, şəhər işğal olunduqdan sonra bütün bunlar

məqsədyönlü şəkildə hərbi texnika ilə məhv edilmişdir. Dünyada ən qədim dəfn yeri olan Xocalı qəbiristanlığı ağır tankların tırtılları altında qalmışdır” (9, s. 3). Beləliklə, düşmənlər Azərbaycan yaşayış məskənini yer üzündən silməklə həm də milli mədəniyyətimizin daş abidələrini də məhv etmişlər.

Çox təəssüf ki, Azərbaycan dövlətinin, Xocalı qaçqınlarının beynəlxalq qurumlara dəfələrlə etdiyi müraciətlər səmərəsiz, nəticəsiz qalmışdır. Çünki ATƏT-in Minsk qrupu da daxil olmaqla bir çox beynəlxalq təşkilatlar “ikili standartlar” azarına tutulduğundan ədaləti görmür, haqlı səsi eşitmir, sanki onlar kar, kor və laldırlar.

Xocalı soyqırımının üzə çıxarılmasında müstəsna xidməti olmuş Azərbaycanın milli qəhrəmanı ANS PRESS-in telereportyoru Çingiz Mustafayevdir. Məhz onun reportajı sayəsində Azərbaycan bu gün öz haqlı mövqeyini dünya ictimaiyyətinə nümayiş etdirə bilir.

Xocalı şəhidlərinn qanları yerdə qalmadı. 44 günlük Vətən müharibəsində əldə olunan qələbə ərazi bütövlüyümüzü təmin etdi. Tarix dərslərində yeni materiallara əsaslanaraq tələbələrə öyrətmək lazımdır ki, Vətən müharibəsinin gedişində Xocalı soyqırımının törədilməsində fəal iştirak edən, dinc azərbaycanlıları məhv edən, onların əmlaklarını mənimsəyən, girovlara amansız işgəncələr verən, qətliamlara görə orden və medallarla “təltif edilən” neçə-neçə erməni cəlladları və terrorçuları xüsusi əməliyyatlar nəticəsində zərərsizləşdirildilər. Bunlardan 80 yaşlı Şuşada yaşayan həbs olunmuş C.Tavosyanı, öldürülmüş “Saşik” ləqəbli, “ASALA”-nın üzvü terrorçu Aleksandr Arutunyanı (14), polkovnik Rüstəm Qasparyanı, separatçı rejimin “müdafiə naziri”ni, əli qanlı “generalları” göstərmək olar. “Milli Ordumuzun əks hücumları zamanı Xocalı soyqırımının iştirakçısı olmuş və hərbi əməliyyatlar başlayandan sonra ön xəttə gələn bir qrup erməni hərbçisi məhv edilib. Ermənistan tərəfdən öldüyü təsdiqlənən bu hərbiçilərin Xocalı soyqırımının iştirakçısı olmaları üzə çıxıb. Belə ki, Torosyan Radik Papinoviç, Qriqoryan Xaçak Formikoviç, Mayılyan Rubik Hovannisoviç, Badoyan Nver Artaşeviç, Melkonyan Serob Məlikoviç, Matevosyan Lernik Martikoviç, Petrosyan Abet Vrejeviç, Poğosyan Arşavir Aşotoviç, Mnoyan Muşeq Lavrentoviç, Qriqoryan Qaqik Fridonoviç, Sirekanyan Qaqik Vaanoviç, Karapetyan Edo Armenoviç, Becanyan Samvel Borikoviç, Asatryan Simon Geqamoviç, Arakelyan Norayr Vladimiroviç 1992-ci ildə Azərbaycan xalqına qətliamlar həyata keçirilərkən işğalçı Ermənistan ordusunda müxtəlif postları tutublar. Azərbaycan xalqına qarşı bu soyqırımının bütün iştirakçı və təşkilatçıları hələ tam cəzalarını almayıblar. Xocalı soyqırımının əsas təşkilatçıları Zori Balayan, Arkadi Qukasyan, Seyran Ohanyan, Robert Koçaryan, Serj Sarkisyan kimi quldurbaşıları olublar” (15). Xocalıda bu erməni cəlladlarının məhkəməsi keçiriləcəkdir. Onlar bütün bəşəriyyət qarşısında ittiham olunub layiqli cəzalarını alacaqlar.

Ümidvarıq ki, yaxın zamanlarda Xocalı soyqırımı abidəsi şəhərdə ucalacaqdır. AMEA azad olunmuş ərazilərmizdəki tədbirlər planına Xocalıda “Xocalı soyqırımı” muzeyinin yaradılması da daxil edilibdir.

**Məqalənin aktuallığı.** Aktuallıq ondan ibarətdir ki, onadır ki, tarix dərslərində Xocalı soyqırımının öyrənilməsi gələcək nəsillərin şüuruna erməni faşizminə nifrət, milli vətənpərvərlik ruhu aşılayır.

**Məqalənin elmi yeniliyi.** Problem kompleks, hərtərəfli araşdırılmasıdır və bu zaman Azərbaycanın 44 günlük Vətən müharibəsi nəticəsində ərazi bütövlüyünün bərpa olunması kontekstində yeni geosiyasi reallıqda Xocalı soyqırımının geniş tədqiq olunması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən alınan nəticələr tarix elminin tədrisi zamanı tətbiq oluna bilər.

## Ədəbiyyat

***Azərbaycan dilində***

1. AMEA Tarix İnstitutunun Elmi Arxivi. inv. № 2084, 303 s.
2. Aşırlı Akif. Türkün Xocalı soyqırımı. Bakı: Nurlan, 2005, 152 s.
3. Boran Əziz. Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri. Bakı: Azərnəşr, 2008, 224 s.
4. Bünyadov Ş. 20 Yanvar hadisəsi və Aprel döyüşlərinin milli ruhumuzun inkişafındakı rolu. Bakı: Zərdabi LTD MMC, 2017, 300 s.
5. Əliyev İ.. Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr. Bakı: Elm, 1989, 120 s.
6. Qırxqızlı Q. Əsrin faciəsi-Xocalı, Bakı: Şərq-Qərb, 1999, 124 s.
7. Məmmədov S. Xocalı soyqırımı. Bakı: Kitab aləmi, 2010, 16 s.
8. Кришталев Евгений. Справедливость для Ходжалы. В Азербайджане вспоминают жертв геноцида азербайджанской общины Нагорного Карабаха // «Независимая газета», 2010, 26 февраля, с. 6
9. Кулиева И. В одном ряду с Хатынью Орадуром…. «Бакинский рабочий», 2010, 19 февраля, с.3
10. Мамедова Х. Ходжалы: шехиды и шахиды (Армянский терроризм как составная часть международного терроризма). Баку: Elm və təhsil, 2004, 141 s.
11. Философия и методология истории, Сб. Статей / Под ред. И.С. Кона. М.: Прогресс, 1977, 336 с.

***İnternet resursları***

12. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycanlıların soyqırımı haqqında” 26 mart 1998-ci il tarixli Fərmanı.// http://www.e-qanun.az/framework/4684 02.06.2017.
13. BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnamə ilə qəbul etdiyi “Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında” Konvensiya// http://www. .gov.az/uploads/ files/konvensiya/ soyqirim_cinayetlerinin_ qarshisinin_alinmasi_ve_cezalandirilmasi_haqqinda_konvensiya.pdf
14. Xocalı soyqırımının iştirakçısı olan erməni terrorçu məhv edildi.// https://modern.az/ az/news/259714/xocali-soyqiriminin-istirakcisi-olan-ermeni-terrorcu-mehv-edildi.10 oktyabr 2020.
15. Xocalı soyqırımını törədənlər bir-bir məhv edilir – SİYAHI//https: //yeni-sabah.az/ xocali-soyqirimini-toredenlerbir-bir-mehv-edilir-siyahi.16 oktyabr 20210.

**Н.D. Надири**

## Методы изучения Ходжалинского геноцида на уроках истории

## Резюме

В статье исследуются трагедия армянских вооруженных сил для человечества как «Ходжалинский геноцид» в истории, подверженность азербайджанцев резне, насилию, геноциду, а также методы преподавания этих событий на уроках истории. Здесь также

изучались причины совершения Ходжалинского геноцида, его сущность, отношение мирового сообщества и международных организаций к этой трагедии, личности исполнителей и их цели, совершившие геноцид.

**H.D. Nadiri**

## Methods of studying the Khojaly genocide in history lessons

## Summary

The tragedy of the Armenian armed forces to the mankind as the 'Khojaly genocide' in the history, exposure of Azerbaijanis to massacre, violence, genocide, and the methods of teaching these events in the history lessons were investigated in this article. The reasons for commitment of Khojaly genocide, essence of it, the attitude of the world community and international organizations to this tragedy, the identity of the perpetrators and their goals who committed the genocide was studied here too.

**Redaksiyaya daxil olub:** 18.02.2021